20-21 aprel / 2021

# Aylardır komada olan hərbçi şəhadətə qovuşdu

## Şəhid əsgər Nurlan Əbilov dünən Masallıda dəfn edildi

**Masallıda Azərbaycan Ordusunun şəhid olmuş əsgəri Nurlan Əbilovla vida mərasimi keçirilib. APA-nın cənub bürosunun verdiyi məlumata görə, şəhid əsgər Nurlan Əbilovun nəşi doğulduğu Masallı rayonunun Ağakişibəyli kəndinə gətirilib. Şəhidlə vida mərasimində Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və rayon ictimaiyyəti iştirak edib.**

Masallıda Azərbaycan Ordusunun şəhid olmuş əsgəri



Nurlan Əbilov Masallı rayonunun Şərəfə kənd qəbiristanlığında torpağa tapşırılıb.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tabuta bükülmüş Azərbaycan Bayrağını şəhidin övladına təhvil verib.

Qeyd edək ki, Nurlan Fərrux oğlu Əbilov Prezident İlham Əliyevin qismən səfərbərlik haqqında elan etdiyi sərəncamla ordu sıralarına çağırılmışdı. O, Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə ağır yaralanmışdı və aylardır ki, komada idi.

Nurlan Əbilov dünən səhər saatlarında müalicə aldığı Silahlı Qüvvələrin Baş Klinik Hospitalında vəfat edib. "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilən şəhidimiz ailəli idi, iki övladı var.